Respublika .- 2024.- 17 dekabr (№ 278). - S.12.

# Türkiyənin turizm şirkətləri ilə gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib






**Türkiyənin aparıcı turizm şirkətinin nümayəndələri üçün Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə tanışlıq səfəri təşkil olunub.**

Dövlət Turizm Agentliyi mətbuat xidmətinin məlumatında bildirilir ki, iştirakçılara Azərbaycanın mədəni irsi, təbiəti və turizm imkanları təqdim edilib, həmçinin Naxçıvan Muxtar Respublikasının turizm potensialı nümayiş olunub. Planlaşdırılmış marşrut çərçivəsində Kəngərli dağlarından Əlincəqalasınadək bir çox turizm potensiallı məkanlar ziyarət edilib. Səfər çərçivəsində qonaqlar 20-yə yaxın yerli turizm şirkəti ilə B2B formatında görüşlər keçirərək, gələcək əməkdaşlıq perspektivlərini müzakirə ediblər.

Qeyd edək ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə 14 faiz artım olmaqla 2024-cü ilin yanvar-noyabr aylarında Türkiyədən Azərbaycana səfər edənlərin sayı 300 mindən çoxdur.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**